# İMİŞLİ: SƏHİYYƏDƏ APARILAN İSLAHATLAR



Tibb işçilərinin peşə bayramında, hər şeydən əvvəl, onu vuğulamaq yerinə düşür ki, son illər Azərbaycan Respublikası üçün təkcə səhiyyəni inkişaf etdirmək sahəsində deyil, hər bir sahədə uğurlu olmuşdur. Bu illər bir daha göstərmişdir ki, ölkəmiz və xalqımız Heydər Əliyev siyasi məktəbinin layiqli yetirməsi cənab İlham Əliyevin rəhbərliyi altında daim möhtəşəm qələbələrə imza atır, xüsusilə sosial sahəyə qayğı gücləndirilir. Sosial cəhətdən aztəminatlı insanlara xidmətdə tədbirlər həyata keçirilir, ana və uşaqların mühafizəsi, tibbi-profilaktika işlərinin görülməsi, dərman və avadanlıq təminatının yaxşılaşdırılması və digər məsələlər daimi diqqət mərkəzində saxlanılır.

Bunu Aran bölgəsinin qabaqcıl rayonlarından olan İmişlidə də aydın görmək mümkündür. Burada sakinlərin bütün növ xidmətlərlə əhatə edilməsinə ardıcıl diqqət yetirilir, əhaliyə göstərilən səhiyyə xidmətinin yüksəldilməsi sahəsində müntəzəm olaraq təsirli tədbirlər hazırlanıb həyata keçirilir. Biz tibb işçilərinin peşə bayramı ərəfəsində İmişlidə olarkən rayon mərkəzi xəstəxanasının baş həkimi Cəsur Paşayevlə görüşdük. Söhbət zamanı baş həkim bildirdi ki, hazırda rayonun yaşayış məntəqələrində əhaliyə rayon mərkəzi xəstəxanası, uşaq xəstəxanası, 6 kənd xəstəxanası, 12 həkim məntəqəsi, 29 tibb məntəqəsi xidmət edir. 92 həkim, 371 orta və kiçik tibb işçisi insanların sağlamlığını qoruyur. Tibb ocaqları öz peşəsinin sirlərini mükəmməl bilən, bu işə yüksək məsuliyyət və vicdanla yanaşan kadrlarla yetərincə komplektləşdirilmişdir. Müalicə ocaqlarının kadrlarla təminatına vacib bir məsələ kimi diqqət yetirilir. Onların ixisasının artırılması, praktiki və nəzəri biliklərinin yüksəldilməsi, gənc tibb işçilərinin öz peşəsinin bilicisi kimi yetişdirilməsi daim diqqət mərkəzindədir.

Rayonun səhiyyə ocaqlarında ana və uşaqların mühafizəsi genişləndirilmiş, “Ailə planlaşdırılması və reproduktiv sağlamlıq” kabinetinin fəaliyyəti gücləndirilmişdir. Mərkəzi xəstəxanadakı qadın məsləhətxanasının fəaliyyəti yaxşılaşmış, bütün hamilə qadınlar xüsusi qeydiyyata götürülmüş, onlar mama-ginekoloqlara təhkim olunmuşlar. Ana ölümünə yol verilməmiş, uşaq ölümü respublika göstəricisinə nisbətən azalmışdır.

Kollektivimizin səyləri ilə rayonda infeksion xəstəliklərə qarşı keyfiyyətli əks-epidemik tədbirlər görülmüşdür. Bu məqsədlə 24 epidemioloji briqada yaradılmış, geniş miqyasda səhiyyə maarifi işi aparılır. Uşaq kontingentində aparılan vaksinasiya və immunizasiya tədbirləri, demək olar ki, bütünlüklə yerinə yetirilmişdir.

Rayon mərkəzi xəstəxanasında vərəmlə mübarizə diqqət mərkəzində saxlanılır. Vərəmi erkən aşkar etmək məqsədilə bakterioloji laboratoriya təşkil olunmuş, bütün səhiyyə işçilərinin qüvvəsi bu mühüm işə səfərbər edilmişdir. Hazırda da rayon üzrə bütün vərəmli xəstələr müalicəyə cəlb olunmuşlar, onlar vaxtlı-vaxtında müayinə olunur, müalicələri üçün hər cür imkandan istifadə edilir.

İmtiyazlı xəstələr daimi həkim nəzarəti altındadır. Şəkərli diabetli, vərəmli və ruhi xəstələrə 93 min manatlıq dərman preparatları, 100 ədəd qlükometr, 555 test çubuqları verilmişdir. Hazırda 35 xəstə dializ şöbəsində müalicə olunur.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin əhalinin icbari dispanserizasiyadan keçirilməsi ilə bağlı göstərişləri İmişlidə dərin razılıqla qarşılanmışdır. Dövlət başçısının humanist tapşırığının uğurla həyata keçirilməsi üçün bütün zəruri tədbirlər görülmüşdür. Bu tədbirə müxtəlif ixtisaslardan olan ən təcrübəli həkimlər cəlb olunmuşdur. Bu günə kimi 48125 nəfər dispanser qeydiyyatından keçmiş, 1350 xəstə aşkar edilmiş, 192 nəfər stasionar və ambulator müalicəyə cəlb olunmuş, 32 nəfər paytaxtın müalicə müəssisələrinə göndərilmişdir.

Maddi-texniki bazanın möhkəmləndirilməsi xidmət mədəniyyətinin yüksəldilməsində mühüm rol oynayır. Son vaxtlar rayonumuzun tibb müəssisələrində bu sahədə xeyli iş görülmüşdür. Prezident İlham Əliyevin sərəncamı əsasında mərkəzi xəstəxana yenidən qurulmuş, müasir tibbi avadanlıqla təmin olunmuşdur. Müalicə və profilaktika müəssisələrində səmərəli müalicə almaq, diaqnostikadan keçmək üçün bütün şərait vardır. Cərrahiyyə, ginekologiya, yoluxucu xəstəliklər, təxirəsalınmaz və təcili tibbi yardım, terapiya, fizioterapiya, laboratoriya, şüa diaqnostikası şöbələri nümunəvi xidmətləri ilə fərqlənirlər. Mərkəzi xəstəxanada çoxdandır ki, ultrasəs müayinəsi, flüoroqrafiya, EKO, rentgen cihazı mövcuddur. Ötən il dializ şöbəsi fəaliyyətə başlamışdır. Hazırda şöbələrin hamısı müasir soyuduculardan istifadə edir, yeni işıq və isitmə mənbələri ilə, generatorla təmin olunmuşlar. Rayonun tibb ocaqlarının əksəriyyəti kifayət qədər yataq dəstləri, yumşaq və bərk inventarlarla təchiz edilmişlər. Göbəktala kəndində yeni tibb məntəqəsinin inşasına başlanılmışdır.

Biz aydın görürük ki, səhiyyə sahəsində dövlət siyasətinin başlıca məqsədi əhalinin sağlamlığının yaxşılaşdırılmasından, orta ömür müddətinin uzadılmasından, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsindən ibarətdir. Yaradılmış möhkəm təməl üzərində səhiyyə islahatlarının davam etdirilməsi bizim ümdə vəzifəmiz və borcumuzdur. İşçilərimiz bu fəaliyyətin nə qədər məsuliyyətli və taleyüklü olduğunu yaxşı başa düşür, dövlətimizin başçısının müəyyən etdiyi tapşırıqların dürüst yerinə yetirilməsinə çalışırlar. Onlar rayonumuzun əhalisinin rifahı üçün bundan sonra da əllərindən gələni əsirgəməyəcəklər. Mən bütün həmkarlarımı, ömrünü-gününü insanların cansağlığının mühafizəsi kimi müqəddəs bir işə həsr etmiş tibb işçilərini bayram münasibətilə ürəkdən təbrik edir, onlara öz peşə fəaliyyətlərində uğurlar diləyirəm.

**Sabir MUSTAFAYEV,**
**“Respublika”.**